0 000000 628518

PAŞA Bank
Zirvələrə doğru. Birlikdə.

**№ PB-OUT-00162-2021**
**12.01.2021**

**Azərbaycan Respublikası Auditorlar Palatasının sədri**
**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim,**

“PAŞA Bank” ASC-nin kollektivi adından Sizi və kollektivinizi 25 illik yubileyiniz münasibəti ilə təbrik edirəm.

Azərbaycan Respublikası Auditorlar Palatası təsərrüfat subyektlərində maliyyə və mühasibat uçotunun dəqiq və dürüst aparılması üçün auditor xidmətinin işinin təşkil edilməsi və təkmilləşdirilməsi tədbirlərinin həyata keçirilməsində müstəsna rol oynamışdır. İnanırıq ki, Azərbaycan Respublikasının Auditorlar Platasının kollektivi öz fədakar əməkləri ilə bundan sonra da iqtisadiyyatımızın daha da möhkəmləndirilməsində öz layiqli töhfələrini verəcəklər.

Sizi bir daha yubiley münasibəti ilə təbrik edir, Sizə və bütün əməkdaşlarınıza can sağlığı, uzun ömür, xoş əhval-ruhiyyə, ölkəmizin iqtisadiyyatının inkişafındakı məsuliyyətli və şərəfli işlərinizdə yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

**Taleh Kazımov**
**İdarə Heyətinin sədri**

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti PAŞA Bank Azerbaijan Republic Open Joint Stock Company

Azərbaycan Respublikasının Auditorlar Palatası
Daxil № 36
18. 01. 2021-ci il